KÜRD xalqı mübariz və qəhrəman xalqdır
H.Əliyev

# KÜRD DÎPLOMAT

№ 17 (308) 25 - 31 May, Gulan sal 2015
Ji meha şûbatê sala 2003-a tê weşandin

Həftəlik İctimai-siyasi qəzet
Rojnama heftename civakî û sîyasî

Qiyməti: / Hêjaye: 40 qəpik

Bilirsən, nə etmiş kürdlər bir zaman?
Qurtarmış İslamı çox ağır dardan!

Qədim Avropanın xaçpərəstləri,
Yüz illər sındırmış göy məsçidləri.

Müsəlman keçmişin öyrənsə əgər,
Kürdün dərgahına daim baş əyər.

Səbahəddin Eloğlu



Səh. 2

## İlham Əliyev Böyükşor bulvarının və parkının açılışında iştirak edib



Səh. 9

## Ji korbenda aboriya cîhanî piştgirî bo Barzanî



Səh. 3

## "Azərbaycan Kürdləri" İctimai Birliyi ermənilərі kürd düşməni elan etdi




Səh. 4

## ŞƏDDADİ KÜRD DÖVLƏTİ



Səh. 5

## Daşkəsən şəhərinin içməli su problemi yüksək səviyyədə tam həllini tapacaqdır



Səh. 5

## Laçının işğal ilə bağlı ümumrayon tədbiri keçirilmişdir



Səh. 8

## Rola Jinên şervanên Kobanê li konferansa navdewletî li Holanda

## Türkiye, Güney Kürdistan'dan bir milyon varil petrol almayı hedefliyor

Səh. 10

## İstanbul 'Bağımsız Kürdistan' diyecek

Səh. 9

## LÜĞƏTLİ ƏLİFBA-ALFABÊYA BI FERHENG

Səh. 11-14

## Россия предлагает поддержку Курдистану и пешмерга

Səh. 15

## Парламент Курдистана приветствует решение США поддержать курдов

Səh. 15

## İsmin Kürtçe'yse devlet değiştirilmesini ister

Səh. 9



Səh. 6

## ME NEHÊLE AXÊ



Səh. 10

## Demirtaş İzmir'de konuştu: Diktatörlüğe izin vermeyeceğiz



Səh. 10

## Tîrêjek Ronahî ji Serdana Min a Hewlêrê



Səh. 10

## Karayılan: Tehdit yok

# İlham Əliyev Böyükşor bulvarının və parkının açılışında iştirak edib

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva mayın 22-də



Böyükşor gölünün bərpası layihəsinin birinci mərhələsi çərçivəsində görülmüş işlərlə tanış olublar. Dövlətimizin başçısı və xanımı göl sahilində salınmış Böyükşor bulvarının və parkının açılışında iştirak ediblər. Azərbaycan Prezidenti və xanımı əvvəlcə Böyükşor gölünün bərpasının ilkin mərhələsi çərçivəsində görülmüş işlərə dair stendə baxdılar. İqtisadiyyat və sənaye naziri Şahin Mustafayev Böyükşor gölünün bərpasının birinci mərhələsi çərçivəsində görülən işlər barədə dövlətimizin başçısına ətraflı məlumat verdi. Sonra Prezident İlham Əliyev Böyükşor bulvarının və parkının rəmzi açılışını bildirən lenti kəsdi. Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva elektromobil və avtobusla Böyükşor bulvarının və parkının ərazisini gəzdilər. Bu layihə Prezident İlham Əliyevin 2014-cü il 17 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2014-2016-cı illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı"na və "Böyükşor gölünün ekoloji vəziyyətinin yaxşılaşdırılması, mühafizəsi və istifadəsi sahəsində əlavə tədbirlər haqqında" 2013-cü il 26 dekabr tarixli Fərmanına uyğun olaraq həyata keçirilir. Layihə ilk növbədə, böyük sosial əhəmiyyəti ilə diqqət çəkir. Vaxtilə sürətlə inkişaf edən paytaxtın tələblərinə uyğun gəlməyən, ekoloji tarazlığı pozan bu ərazidə çox qısa zamanda bu cür nəhəng infrastruktur layihəsinin reallaşdırılması Prezident İlham Əliyevin yürütdüyü sosial siyasətin uğurlarının əyani təsdiqidir. Birinci Avropa Oyunlarına daxil olan tədbirlərin böyük əksəriyyətinin Böyükşor gölünün şərq sahilində yerləşən Bakı Olimpiya Stadionunda və digər infrastruktur komplekslərində keçirilməsi isə bu layihənin əhəmiyyətini daha da artırır. Layihənin birinci mərhələsi çərçivəsində həyata keçirilən tikinti işləri zamanı gölün şərq və cənub sahilində bulvar və park salınıb. Ümumi abadlıq işlərinin sahəsi 15 hektardan çoxdur. Bu ərazidə neftlə çirklənmiş torpaqlar təmizlənib. Həmçinin çirklənmiş yeraltı suların gölə daxil olmasının qarşısı tamamilə alınıb və drenaj sistemi qurulub.

Bildirildi ki, sahilboyu gəzinti zolağının uzunluğu 2,5 kilometr, bulvar sahəsinin ümumi eni isə 94 metrdir. Burada idman və uşaq oyun meydançaları qurulub, ayrıca qaçış və velosiped zolaqları salınıb, minlərlə ağac və bəzək kolu əkilib. Gölün içində quraşdırılmış fəvvarələr kompleksi şəhərimizin qonaqlarının zövqünü oxşamaqla yanaşı, həm də gölün suyunun keyfiyyətinin yaxşılaşdırılması üçün onu oksigenlə zənginləşdirir. Gölün idarə edilməsi, su keyfiyyətinin yaxşılaşdırılması və monitorinqi üçün günəş enerjisi ilə qidalanan xüsusi qurğulardan istifadə edilir. Bakı Olimpiya Stadionuna yaxın olan Böyükşor gölünün sahilində həyata keçirilən abadlıq-quruculuq tədbirləri şəhərimizin daha da gözəlləşməsinə, insanların rahatlığına xidmət edəcək və paytaxtımızın sakinlərində və qonaqlarında xoş təəssüratlar, dərin məmnunluq hissi yaradacaq. Bir vaxtlar burada mövcud olan ekoloji fəlakətin aradan qaldırılması indi bu ərazini geniş yaşıllıq zolaqlarının, təbii landşaftın olduğu məkana çevirib. Burada iaşə və əyləncə məkanlarının yaradılması isə onun paytaxtın arxitekturasına xüsusi yaraşıq verəcəyini bir daha təsdiqləyir.

Qeyd edildi ki, beynəlxalq ekspertlərin qiymətləndirmələrinə əsasən, Böyükşor gölü dünyada ən çox çirklənmiş sututarlardan hesab olunurdu. Qısa müddətdə görülmüş işlər nəticəsində gölün ekoloji göstəricilərinin dinamikası müsbətə doğru əhəmiyyətli dərəcədə dəyişib. Uzun illər Böyükşor gölünə axıdılan sənaye və məişət tullantı sularının və neft qalıqlarının qarşısı artıq böyük həcmdə alınıb. Belə ki, layihənin icrasına başlamazdan əvvəl gölə 76 mənbədən sənaye və məişət tullantı suları axıdılırdı. Layihə ərazisində bu mənbələr tamamilə ləğv edilib, qalan sahədə isə 20-yə endirilib və bu göstərici azalmaqdadır. Gölün dibinin təmizlənmiş ərazilərində neftlə çirklənmənin səviyyəsi 121 min mq/kiloqramdan 86-ya enib ki, bu da gölün dibinin artıq ekoloji normalar çərçivəsində olması deməkdir. Layihə ərazisinin cənub sahili boyunca kanalizasiya xətti çəkilib və bu hissədə çirklənmə mənbələrinin qarşısı tamamilə alınıb. Gölə axıdılan bütün mənbələrin qarşısının alınması suyun



keyfiyyətini yaxşılaşdırır. Neftlə çirklənmiş əsas ərazi layihə ərazisinin Balaxanı qəsəbəsi tərəfindədir. Gölün şimal hissəsi sovet dövründə, əsasən də İkinci Dünya müharibəsi zamanı xam neft üçün açıq anbar ərazisi kimi istifadə edilib və bu, gölü həddən artıq çirkləndirib. Qədim Balaxanı neft yataqlarından gölün bu hissəsini çirkləndirən neft tullantılarının qarşısının alınması üçün 1850 metr uzunluğunda xüsusi bənd inşa edilib. Bu bənd Balaxanı qəsəbəsi tərəfdən gölün tarixi məcrasının sərhədləri boyunca tikilib. Eyni zamanda, yüz ildən artıq müddətdə göl dibinə yığılmış çirkli çöküntülərin çıxarılması və zərərsizləşdirilməsi işləri görülür.

Layihənin ilkin mərhələsində gölün dibindən 2,8 milyon kubmetr həcmində çöküntü çıxarılaraq gələcəkdə zərərsizləşdirilməsi üçün müvəqqəti təcrid edilmiş anbar ərazisinə toplanıb. Gələcəkdə dib çöküntülərinin zərərsizləşdirilməsi üçün 100 hektar ərazidə müvəqqəti saxlanc anbarı inşa edilib. Gölün mühafizə zonası da daxil olmaqla, ciddi mühafizə işi təşkil edilib, göl və sahil xətlərinin məişət və tikinti tullantıları ilə çirklənməsinin qarşısı tamamilə alınıb. Bundan əlavə, burada su səviyyəsinin tənzimləyən üç su keçid hidrotexniki qurğusu inşa edilib. Suyun səviyyəsinin və keyfiyyətinin idarə edilməsi üçün avtomatlaşdırılmış nəzarət-monitorinq sistemi quraşdırılıb.

Gölün Bakı Olimpiya Stadionu tərəfində ümumi uzunluğu 7200 metr olan 2 neft, 2 qaz və 2 su borusu yeraltı dəhlizə köçürülüb. Gölün mühafizə zonasında 11 mühafizə məntəqəsi quraşdırılıb və bərk tullantıların atılmasının və əraziyə kənar müdaxilələrin qarşısı tam alınıb. Birinci mərhələnin icrası və layihə ərazisinin təcrid edilməsi məqsədilə burada 1570 metr uzunluğunda bənd çəkilərək Böyükşor gölü iki hissəyə ayrılıb. Gölün digər tərəfinin təmizlənməsi işləri layihənin növbəti mərhələsində həyata keçiriləcək. Bu bənd gələcəkdə Ziya Bünyadov prospekti ilə Balaxanı şosesini birləşdirəcək 8 zolaqlı magistral yolun özülü olacaq. Buradan da görünür ki, Böyükşor gölünün 300 hektara yaxın hissəsində icra olunan birinci mərhələ üzrə işlər uğurla həyata keçirilib.

Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə əsasən gölün tam bərpasını nəzərdə tutan növbəti mərhələdə göl öz təbii tarixi məcrasına qaytarılacaq, su səviyyəsi tənzimlənəcək və ekosistem bərpa olunacaq.

# İlham Əliyev Belarusun Baş nazirinin müavininin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib

Prezident İlham Əliyev Belarus Respublikası Baş nazirinin müavini Vladimir Semaşkonun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Baş nazirin müavini Vladimir Semaşko Belarus Prezidenti Aleksandr Lukaşenkonun salamlarını dövlətimizin başçısına çatdırdı. O, ölkəmizə səfərindən ötən qısa dövr ərzində Azərbaycanda gedən sürətli inkişaf proseslərinin onda dərin təəssürat yaratdığını dedi. Vladimir Semaşko Azərbaycanın dünyada ilk dəfə keçiriləcək birinci Avropa Oyunlarına hazırlıq proseslərinin maraqla izlənildiyini vurğuladı. Dövlətimizin başçısı ölkəmizdə birinci Avropa Oyunlarına hazırlıq işlərinin qısa vaxt ərzində, cəmi iki ilə başa çatdırıldığını qeyd edərək bu Oyunların keçirilməsi üçün ən müasir



idman obyektlərinin və infrastrukturun yaradıldığını bildirdi. Görüşdə XXI Azərbaycan Beynəlxalq qida sənayesi və IX Azərbaycan Beynəlxalq kənd təsərrüfatı sərgilərinin yüksək səviyyədə təşkil olunduğu vurğulandı, bu tədbirə marağın ildən-ilə artdığı qeyd olundu. Söhbət zamanı Azərbaycan ilə Belarus arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, kənd təsərrüfatı, sənaye, maşınqayırma və digər sahələrdə əməkdaşlığımızın daha da genişləndirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı. Dövlətimizin başçısı Prezident Aleksandr Lukaşenkonun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Belarus dövlətinin başçısına çatdırmağı xahiş etdi.

***president.az***

# “Azərbaycan Kürdləri” İctimai Birliyi ermənilləri kürd düşməni elan etdi

***Tahir Süleyman: “Təkcə 1897-ci ildə 40 min türk və kürd ermənilər tərəfindən Türkiyənin Xanasor əyalətində qətlə yetirilib”***

Azərbaycan Kürdləri İctimai Birliyinin sədri, Azərbaycanda azərbaycanca və kürdcə çap edilən “Diplomat” qəzetinin baş redaktoru Tahir Süleyman Şimali İraq Kürd Administrasiyasının baş şəhəri olan Ərbildə keçirilən dünya kür təşkilatları konfransında iştirak edir.

Musavat.coma-a istinadən xəbər verilir ki, bir neçə gündür Ərbildə olan olan Tahir Süleyman dünya kürd təşkilatlarının liderləri və təmsilçiləri qarşısında çıxışı zamanı Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi, Xocalıda dinc Azərbaycan vətəndaşlarına ermənilərin divan tutması, Ermənistan ərazisindən yüz minlərlə azərbaycanlı və kürd əhalinin tarixi dədə-baba torpaqlarından zorla deportasiya edilməsi, bu deportasiya zamanı ermənilərin azərbaycanlılarla yanaşı, kürdləri də qətlə yetirməsi barədə faktlara əsaslanan məlumatlar verib. Ərbilin Səlahəddin Universitetində keçirilən konfransda T.Süleyman ermənilərin Türkiyənin Xanasor əyalətində törətdiyi cinayətləri konfrans iştirakçılarının diqqətinə çatdırıb.

O, tarixi mənbələrə əsaslanaraq bildirib ki, həmin əyalətdə 1897-ci ildə



40 min türk və kürd ermənilər tərəfindən qətlə yetirilib. Tahir Süleyman verdiyi xəbərə görə, konfrans dünya erməniliyinin qondarma “erməni soyqırımı” ilə bağlı hay-küy qopardığı günlərə təsadüf etdiyindən, çıxışında və keçirdiyi görüşlərdə tarixdə ermənilərə qarşı soyqırım olmadığı olmadığını, Türkiyədə hələ də on minlərlə erməni mənşəli insanın sərbəst yaşadığını, əslində ermənilərin 20-ci əsrin əvvllərindən indiyə qədər dəfələrlə türklərə, Azərbaycan türklərinə, kürdlərə qarşı böyük miqyaslı qətliamlar həyata keçirdiyini, terror təşkil etdiyini faktlar sadalamaqla qeyd edib:

“Faktlara əsaslanaraq qeyd etdim ki, ermənilər Azərbaycanın kürdlərin kompakt yaşadıqları ərazilərini də işğal edib, orada dinc əhaliyə qarşı qırğınlar törədiblər. Ermənilərin türklərlə yanaşı kürdlərə də həmişə düşmən kimi yanaşdığı təsdiq eləyən çoxsaylı faktlar var. Ermənilər 20-ci əsrin əvvəllərində Osmanlı ərazisində çoxlu sayda kürd kəndlərinə hücumlar təşkil edib, kəndlərdə kürd əhalini, qadınları, qocaları, uşaqları işgəncə ilə qətlə yetiriblər. Bütün çıxışlarımda, görüşlərimdə dünya kürdlərinə bəyan edirəm ki, Azərbaycan kürdləri ermənilərin iç üzünü, əsl sifətini, kürdlərə də düşmən kəsildiyini yaxşı bilir, dünya kürdləri də ermənilərin bizə düşmən kimi yanaşan müxənnət, məkrli millət olduğunu bilməlidir, həmişə ermənilərdən məsafə saxlamalıdır. Biz erməni yalanlarına uymamalıyıq. Ermənilər, dünyada ermənilərə dəstək verən güclər Türkiyəni və Azərbaycanı zəifllətmək və bu ölkələrdə yaşayan bütün müsəlmanları köləyə çevirmək məqsədi güdürlər. ”Erməni soyqırımı” hay-küyü də bunun üçündür".



# İraq kürdlərinin lideri: İŞİD-ə qarşı mübarizə ideoloji mübarizədir

İraq kürdlərinin lideri Məsud Barzani Amerikanın Səsinə müsahibədə deyib ki, İslam Dövləti qrupuna qarşı mübarizədə İraqda tam sabitlik və təhlükəsizliyin təmin edilməsi əsas prioritetdir. O bu mübarizənin təkcə İŞİD-ə qarşı yönəlmiş olmadığını, eyni zamanda İslam Dövləti kimi yeni bir qrupun yaranmasına imkan verməmək oduğunu deyib. Məsud Barzaninin sözlərinə görə, onun hökuməti İraqın hər yerində təhlükəsizliyin təmin olunması ilə yanaşı ərəblər, kürdlər, türkmənlər və xristianların öz yaşadığı yerlərə qayıda bilməsinə təminat yaratmağa çalışır.

O bildirib ki, İslam Dövlətinə qarşı mübarizə bir neçə sınaq var, lakin kürd Peşmərgə qüvvələri regionda gedən əməliyyatların önündə getməyə nail olub.

Barzaninin bildirdiyinə görə, İŞİD-ə qarşı mübarizə təkcə hərbi və iqtisadi müharibə deyil, həm də ideoloji müharibədir. O deyib ki, regional hökumət gənc insanların İslam Dövləti qrupuna qoşulmaq kimi səhvə yol verməməsi üçün bir sıra praktiki addımlar atır.

Məsud Barzani ABŞ-ın yüksək səviyyəli rəsmiləri ilə danışıqlar aparmaq məqsədilə Vaşinqtona səfər edib. Bu həftənin əvvəli o, İslam Dövləti qrupuna qarşı mübarizə və İraq xalqının ehtiyaclarının təmin edilməsi təşəbbüsləri də daxil olmaqla müxtəlif məsələlər müzakirə etmək məqsədilə ABŞ prezidenti Barak Obama və ABŞ-ın vitse-prezidenti Co Baydenlə görüşüb.

Ağ Evin bildirdiyinə görə, prezident Barak Obama və vitse-prezident Co Bayden ABŞ-ın İraqın Kürdüstan regionu və kürd xalqına öhdəliklərinə sadiq qaldığın bir daha təkrarlayıb. Birləşmiş Ştatlar kürdlərin Peşmərgə qüvvələrinə təhlükəsizliklə bağlı yardım göstərir.



# Kürdlər İraqın təklifini rədd etdi

Peşmərgə qüvvələri İraq Müdafiə naziri Xalid Ubeydinin çağırışına rədd cavabı verib. Axar.az xəbər verir ki, peşmərgə qüvvələrinin baş qərargahından verilən məlumatda bildirilir ki, kürd qüvvələri İraq ordusu ilə birgə Ənbar vilayətindəki əməliyyatlarda iştirak etməyəcək. Rudav-ın məlumatına görə, kürd rəhbərliyi İŞİD-lə mübarizədə İraq ordusunun kifayət qədər güclü olduğunu və heç bir dəstəyə ehtiyacı olmadığını açıqlayıb. Xatırladaq ki, İraq Müdafiə naziri Xalid Ubeydi bir müddət öncə İŞİD-in işğal altındakı saxladığı Ramadini azad etmək üçün peşmərgə qüvvələri ilə əməkdaşlıq etməyə hazır olduqlarını bildirimişdi.

# Almaniyadan kürdlərə 140 ton silah

Almaniya hökuməti Kürdüstan bölgəsinə 2 yük təyyarəsində ümumi çəkisi 138 ton ağırlığında silah-sursat göndərib. Axar.az-ın xəbər verir ki, Almaniya ordusunun rəsmi internet səhifəsində yer alan məlumatda yük təyyarələrinin 12 və 13 may tarixlərində Leypsiq şəhərindən Bağdada, daha sonra Ərbilə göndərildiyi bildirilib.



Verilən məlumata görə, silah tədarükü aşağıdakı kimidir:

- 300 “Milan” raket mərmisi
- 120 min "Leuchtspur" G3 mərmisi
- 1392 anti-tank raketi "Panzerfaust 3" mərmisi
- 5000 əl qumbarası
- 1,812,000 ədəd “G36” tüfəng gülləsi
- 480,000 ədəd "Leuchtspur" mərmisi
- 10,000 ədəd “G3” mərmisi
- 508,800 ədəd “MG3” mərmisi
- 908 ədəd "Panzerfaust 3" mərmisi (Anti-tank raket üçün)
- 60 ədəd "illum" mərmisi (Anti-tank raket "Panzerfaust" üçün)

# ABŞ-ın İslam Dövləti strategiyası

İraq üzrə mütəxəssislər xəbərdarlıq edir ki, Birləşmiş Ştatlar Sunni İraqlıların İslam Dövləti qrupuna qaşı silahlandırılması məsələsi üzərində işləməyənə qədər Vaşinqtonun münaqişəyə havadan müdaxilə siyasəti heç bir nəticə verməyəcək. Onların fikrincə, bu, yalnız ölkənin məzhəb zəminində müharibəyə sürüklənərək dağılması prosesini yavaşıda bilər. Ramadi sakinləri hücum altında şəhəri tərk edir. 18 may, 2015. 10 il əvvəl eyni situasiya ilə üzləşən ABŞ hərbi qüvvələri İslam Dövləti qrupunun sələfi olan İraqda Əl-Qaidə qrupuna qarşı 90 min sünnini silahlandırmaq qərar vermişdi. Nəticədə Əl-Qaidə geri çəkilməyə məcbur olmuş və bir neçə il ərzində İraq tədricən müharibədən çıxmağa başlamışdı.

ABŞ-ın İslam Dövləti qrupuna qarşı hazırkı strateqiyası hələlik hava hücumlarından və Xüsusi Qüvvələrin reydlərindən ibarətdir. Keçən həftə Xüsusi Təyinatlı Qüvvələrin Suriyada həyata keçirdiyi hücum nəticəsində İslam Dövləti qrupunun yüksək səviyyəli lideri Əbu Sayyafı qətlə yetirilib. Əgər mərkəzi hökumət İŞİD-ə qarşı vuruşmaq üçün sünnilərdən ibarət qüvvə təşkil edə bilməsə, onda sünnilərin məskunlaşdığı qərbi Bağdada nəzarət itirilə bilər.

Massaçutes ştatının Northeastern Universitetində siyasi elmlər üzrə professor Maks Abrahms Amerikanın Səsinə bildirib ki, bu strateqiya İslam Dövləti



qrupunun ərazilərinin böyük hissəsinə nəzarət etdiyi Suriya və İraqda baş verənlərin qarşısını almaq üçün kifayət deyil. 2005-2010-cu illərdə İraqda xidmət göstərən sabiq ABŞ kəşfiyyat zabiti Maykl Preqant deyib ki, Xüsusi Təyinatlı Qüvvələrin reydləri kimi əməliyyatlar İslam Dövləti qrupunu zərərsizləşdirməyə kömək edəcək məlumatların əldə edilməsinə kömək edə bilər. Əməliyyat haqda məlumat verən Suriya televiziyası İslam Dövləti qrupunun yüksək rütbəli komandiri də daxil olmaqla bir neçə üzvünün hökumət qüvvələri tərəfindən öldürüldüyünü bildirib.

Maykl Preqent Ağ Evin sonradan əməliyyat barədə məlumatın detallarını açıqlamasını tənqid edib. Onun sözlərinə görə, ictimaiyyət qarşısında qələbəni nümayiş etdirmək arzusu uzaqgörən siyasətdən xəbər vermir. Pregent də, Abrahms da İslam Dövləti qrupunun həm quruda, həm də havadan hücuma məruz qaldığı zaman ciddi itkilər verdiyini düşünür. Bu, ABŞ hava qüvvələri Suriyanın Kobani qəsəbəsində Kürd qüvvələrinə, ya da İraqda, Tikritdə şiə yarı hərbi dəstələrinə dəstək olaraq havadan hücumlar təşkil etdiyi zaman baş vermişdi. İraqın hökumət qüvvələri İŞİD qarşısında acizdir. Ancaq belə koordinasiya keçən həftə İslam Dövləti qrupu tərəfindən ələ keçirilən əsas etibarilə Sünnilərin yaşadığı Ramadi qəsəbəsində baş tutmadı. Maykl Pregent bunu böyük məğlubiyyət kimi qiymətləndirir.

O, şiə yarı hərbi dəstələri və peşmergələrin Ramadiyə diqqət verməediyini, şiələrin Sünni ərazilərə getmək və orada döyüşmək istəmədiyini deyir. “İslam Dövləti qrupu bu yanaşmadan xəbərdardır,” deyə o bildirir.

Maykl Pregent deyir ki, Vaşinqton Əl-Qaidəni məğlub etməkdə rol oynayan sabiq sünni qəbilə liderlərini bir araya gətirməli və Bağdad hökumətinin sünni ərazilərin İslam Dövləti qrupundan təmizlənməsini istəyirsə onların İraq təhlükəsizlik qüvvələrinə cəlb etməsi, silahlandırmalsı və təqaüd verməsinə nail olmalıdır. ***www.amerikaninsesi.org***

# ŞƏDDADİ KÜRD DÖVLƏTİ

Azərbaycan tarixən çox millətli ölkə kimi tanınmışdır. Əlverişli coğrafi mövqeyə malik olan Azərbaycanda müxtəlif etnik mənşəyə malik olan xalqlar əsrlər boyu birlikdə yaşayaraq müasir Azərbaycan xalqının formalaşmasında yaxından iştirak etmişlər Antik Yunan Roma müəllifləri-Miletli Hekatey, Lampsaklı Xaron, Lidiyalı Ksanf, Herodot, Knidli Ktesi, Ksenofont, Strabon, Tit Livi və s. Azərbaycanda yaşayan müxtəlif tayfalardan bəhs etmişlər. Məşhur yunan coğrafiyaçısı Strabon (e. ə. 63-b. e. 23-cü illər) Albaniyada (müasir Azərbaycan Respublikası) yaşayan 26 tayfanın adın çəkir. Pəhləvi, qədim erməni, ərəb, fars, Suriya mənbələri Azərbaycanda yaşayan müxtəlif dillərdə danışan xalqlar barədə məlumat verir. Ərəb müəllifi İbn Hövqəl Qabh(Qafqaz) dağlarında 360 dildə danışıldığın göstərir. Digər məşhur ərəb səyyah-coğrafiyaşünası və tarixçisi əl-Məsudinin yazdığına görə Qafqazda hər birinin öz hökmdarı və başqalarının anlamadığı dili olan 72 xalq yaşayır.

İrandilli xalq olan kürdlər Azərbaycanın aborigen sakinləri olub qədim dövrlərdən müasir Azərbaycan və Ermənistan ərazilərində yaşamışlar. Mənbələrdə kürdlər müxtəlif adlarla yad edilmişdir. Məsələn, qədim erməni mənbələrində kürdlər daha çox marlar(midiyalılar) adlanır. Sasanilərin hakimiyyəti dövründə (III-VII əsrlər) kürdlər regionun əsas etnik ünsürlərindən biriydi. Təsadüfi deyil ki, ərəb mənbələri Şirvan və həttda Dərbənddə də kürd məskənlərinin olmasından bəhs edirlər. Ərəb işğalı prosesində ərəblərlə azərbaycanlılar arasında bağlanan müqavilədə Balasakan və Savalan kürdlərinin adlarının çəkilməsi kürdlərin yadellilərə qarşı mübarizəsini və əsas etnik qüvvələrdən biri olmasını göstərir. Təsadüfi deyil ki, Ərəb xilafətinin parçalanması nəticəsində yaranan feodal dövlətlərinin əksəriyyətində hakim sülalələr kürd mənşəli tayfalar olmuşlar. Hətta türk mənşəli Sacilər dövlətinin (889-941-ci illər) sonuncu hokumdarı Deysəm ibn İbrahim ibn Şadluyə mənşəcə kürd olmuşdur. Belə tanınmış kürd sülalələrindən biri dəAzərbaycanın və bir sıra qonşu ölkələrin hərbi siyasi tarixində fəal rol oynamış Şəddadilər sülaləsidir. Bu sülalə X əsrin ortalarından XII əsrin sonunadək Cənubi Qafqazın Gəncə, Arran-Naxçıvan, Dvin və Ani əmirliklərində hakimiyyət başında olmuşlar. Görkəmli Azərbaycan tarixçisi, t. e. d. professor M. X. Şərifli 1978-ci ildə nəşr olunmuş "IX əsrin ikinci yarısı- XI əsrlərdə Azərbaycan feodal dövlətləri " monoqrafiyasında Şəddadilər dövləti haqqında qiymətli məlumatlar verir. Üstündən xeyli vaxt keçməsinə baxmayaraq ilkin mənbələr əsasında yazılmış bu əsər öz əhəmiyyətini ini də saxlayıb. Bu sayımızdan başlayaraq bu əsərin Şəddadilər dövlətindən bəhs edən hissəsini bəzi dəyişiklik və əlavələrlə diqqətinizə çatdıracağıq.

Gəcə Şəddadilər dövləti X əsrin II yarısında əmələ gəlmişdir. Bu dövlətin ərazisi əsas etibarilə şimalda Kür çayı, cənubda Araz çayı, şərqdə Beyləqan nahiyəsi, qərbdə Xunan qalasına(Al-İstakhri. Kitab Masalik al-Mamalik, ed. de Goeje, BGA, t. I Lugd. Batav, 1870, səh. 193) qədər uzanan Arran torpaqlarını əhatə etmişdir. Məlum olduğu kimi , Arran vilayətinin ərazisi ayrı-ayrı dövrlərdə öz sərhədlərini dəyişmişdir. İstəxri Arran vilayətindən bəhs edərkən göstərir ki, Arranın sərhədi Dərbənddən Tiflisə və Araz çayı yaxınlığında Naxçıvan adlanan yerə qədər çatır(Yenə orada, səh. 190). İbn Hövqəl Bərdə haqqında bəhs etdiyi zaman onu Ümmür-Ran , yəni Arranın anası hesab edir. (İbn Haukal. Liber imaginis terrae. ed. J. H. Kramers. Lugd. Batav 1939, səh. 337)o göstərir ki, Arranda Bərdə, əl-Bab(Dərbənd) və Tiflisdən böyük şəhər yoxdur. Beyləqan, Varsan, Bərdic, Bərzənc, Şamaxiya, Şirvan, Laican, Şabran, Qəbələ, Şəki, Cənzə(Gəncə), Şəmkür vəXunan isə kiçik vilayətlərdir;şəhərləri gözəl, eyni böyüklükdə və məhsuldardır, yararlı təsərrüfat sahələrinə malikdir. (Yenə orada, səh. 342). Müqəddəsi "Əhsən ət –təkasim fi-mərifət əl-əkalim" əsərində yazır ki, Arrana gəldikdə o dəniz ilə Araz çayı arasında yarımada şəklində olub bütün vilayətin təqribən üçdə birini təşkil edir. Məlik çayı vilayəti ortadan bölür, onun paytaxtı Bərdədir. (Descriptio imperii moslemici auctore, ed. M. J. de Goeje, Lugd. Batav, BGA, t. III, 1872. Səh. 373)




Arran ölkəsi və buradakı şəhərlər haqqında Yaqut Həməvi belə yazır:"Arran ərəb adı deyildir , bu geniş ölkədir və çoxlu şəhərləri vardır. Xalq dilində Gəncə deyilən Cənzə, Bərdə, Şəmkür və Beyləqan onun şəhərlərindəndir".

Münəccimbaşının "Cami əddüvəl" əsərinin "Şəddadilər " fəslindən göründüyü kimi, çox məşhur olan Arran ölkəsi qərbdən. cənubdan və şərqdən Azərbaycanla. şimaldan isə Qafqaz dağları ilə həmsərhəddir. Naxçıvan, Gəncə, Dərbənd, Beyləqan, Şəmkür, Tiflis, hətta Şirvan da Arran şəhərlərindən sayılmışdır. (V. Minorski. Studies in Caucasian history, London, 1953. (Bundan sonra V. Minorski. Şəddadilər), səh. 6-8, 188)

Kəsrəvi Təbrizi arranlıları İran dillərinin birində danışan iranlıların bir qismi kimi göstərməyə çalışaraq onları VI əsrin axırlarında buraya köçüb gəlmiş Mehranilərlə əlaqələndirmişdir. (Kəsrəvi Təbrizi. Şəhriyarani –romnan, II cild, Tehran 1928, səh. 3). Şəddadilərin hakimiyyəti dövründə Arranın ən görkəmli şəhəri Gəncə idi. Onların hakimiyyəti Gəncədə təşəkkül etmiş və beləliklə Gəncə şəhəri Şəddadilər dövlətinin paytaxtı olmuşdu.

Şəddadilər ilk dəfə Dəbil (Dvin) ətrafında yaşamış 340 (951)-ci ildən Şəddadi Məhəmməd Dəbildə rəsmi olaraq hakimiyyət başına keçmişdir. Onun övladları isə 356 (966/7)-cı ildən sonra Gəncəyə gəlmişlər. 360 (970/1)-cı ildən burada hakimiyyəti ələ alaraq Azərbaycanda yeni bir feodal dövləti yaratmağa müvəffəq olurlar. (Səhayif əl -əxbar, səh. 507). Şəddadilərin ilk dövlət başçısı Dəbildə hakimiyyəti öz əlinə alan Məhəmməd ibn Şəddadın fəaliyyəti haqqında bəzi məlumat verməyi faydalı hesab edirik. Qeyd etmək lazımdır ki, Dəbildə müvəqqəti də olsa hakimiyyəti öz əlinə alan Məhəmməd ibn Şəddadın mənşə etibariylə kürd olduğunu istifadə etdiyimiz bütün ilk mənbələr təsdiq edir. Münəccimbaşı "Cami əd-düvəl" əsərinin "Şəddadilər" fəslinin ilk sətirlərinə başladığı zaman onların kürd olduğunu təsdiq edir(Münəccimbaşı. Şəddadilər fəsli, səh. 1). İbn əl-Əsir Şəddadi Fəzlunun xəzərlər üzərinə hücum etməsiylə əlaqədar onu "Fəzlun əl-Kürdi" adlandırır(İbn əl-Əsir. Tarix əl-Kamil, VII-XI. Misir, hicri 1290. səh. 171). Yeri gəlmişkən qeyd edək ki, İbn əl-Əsir Vəhsudan və Məmlanın mənsub olduğu rəvvadilər tayfasının da kürd olduğunu göstərir. Kəsrəvi Təbrizi bu fikrin düzgün olmadığını qeyd edərək şəddadilərlə rəvvadilərin qohum olmadığını, şəddadilərin yerli olduğunu , lakin rəvvadilərin mənşə etibariylə ərəb olduğunu göstərir(Kəsrəvi Təbrizi. Göstərilən əsəri III cild, səh. 7). Bunu da qeyd etmək lazımdır ki, İbn Xəlliqan Dvin şəhəri ətrafındakı kürdləri rəvvadi adlandırır(İbn Xəlliqan. Kitabe vəfiyatül əyan və ənbaüz zəman. Təbriz, hicri 1257). Kəsrəvi isə bu rəvvadilər sözünün təşdidsiz yazıldığını və kürd şəddadilərin bunlardan olduğunu göstərir( Kəsrəvi Təbrizi Göstərilən əsəri, səh. 7).

Gəncə Şəddadilər dövləti Salarilərin Azərbaycanda hakimiyyət sürdükləri dövrdə əmələ gəlmişdir. Münəccimbaşının məlumatına görə Azərbaycan Salarilər dövlətinin başçısı Mərzuban 337(948/9)-ci ildə Rey hakimi ilə müharibə zamanı əsir düşərək Səmirəm qalasında dörd ilə qədər. yəni 337-341 (948-953)-ci illərdə həbsdə saxlanılmışdı. Bu zaman Azərbaycan dövlətində qayda pozulmuş və hər bir vilayətdə feodal hakimlər baş qaldırmışdı(V. Minorski. Şəddadilər, səh3). Hətta Mərzubanın övladları onun həbs etdiyi sabiq Azərbaycan hakimi Deysəm ibn İbrahimi (Sacilər dövlətinin sonuncu hökmdarı(932-941) Deysəm ibn İbrahim ibn Şadluyə əl Kürdi-N. H. ) həbsdən azad etmişdilər. Deysəm Azərbaycanda gəzərək özünə tərəfdarlar axtarırdı. Bu zaman müstəqil olmağa çalışan feodallardan biri də Məhəmməd ibn Şəddad ibn Qurtaq idi (Yenə orada. ). Məhəmməd ibn Şəddad fürsətdən istifadə edərək Salarilər dövlətinə tabe olan Dəbil şəhərini tutaraq hakimiyyətini möhkəmlətməyə başlamışdı. Məhəmməd Dəbil şəhərini və əhalisini düşmənin hücum və basqınlarından mühafizə etməyi öz öhtəsinə götürərək əhaliyə bir sıra bir sıra vədlərdə vermişdi. (Yenə orada) Erməni müəllifi Vardan (1271-ci ildə ölmüşdür) şəddadilərin mənşəyi və Gəncəyə gəlmələri haqqında çox qəribə bir məlumat verir. O yazır:"Həmin günlərdə Parisos nahiyəsinə (Dağlıq Qarabağ vilayətindədir) şanlı knyaz Qriqorinin (Magistros) yanına İrandan üç oğlu ilə bərabər Mam adlı bir qadın gəldi. Oğullar öz anasını knyaza girov verdi, Şotk və Şamiram (Vaspurakan vilayətində) qalalarını aldılar ". (Vardan. Vseobşaya istoriya, Moskva 1861, səh. 125). Vardan bununla 1044-cü il hadisələri ilə əlaqədar olaraq şəddadilərin Gəncəyə gəlməsi və Fəzlun haqqında bəzi məlumat vermişdir. Vardanın "Mam adlı bir qadın üç oğlu ilə İrandan Qriqor Magistrosun yanına Parisos nahiyəsinə gəldi"-deyə yazdığı bu qəribə məlumata başqa mənbələrdə təsadüf edilmir. Yuxarıda qeyd edildiyi kimi Şəddadi Məhəmməd öz oğulları ilə Dvin ətrafına gəlmişdi. Bunu da qeyd etmək lazımdır ki, o zaman Rəvvadi Məhəmmədin "Məmlan" adlandığı məlumdur. Lakin Vardan Məhəmməd adlı kişinin nə üçün "Mam" adlı qadınla qarışıq saldığı aydın deyildir. Bütün bunlarla bərabər Vardanın əsərində adların, tarix və sairənin səhv olmasına baxmayaraq onun şəddadilər haqqındakı yazılarında qiymətli tarixi məlunat vardır.





Məhəmmədin Dəbildəki hərəkətləri Azərbaycan hakimi Mərzubanın oğlu İbrahimə yetişdi. Mərzuban Səmirəmdə həbsdə olduğu zaman Azərbaycanı oğlu İbrahim idarə edirdi. Məhəmməd ibn Şəddadın Dəbili tutduğunu eşidərək İbrahim atasını vassalı Deyrmus (Veyzur) hakiminə məktub yazaraq Dəbili mühasirə edib Məhəmmədi oradan qovmasını tapşırdı. Deyrmus hakimi də qoşun toplayaraq Məhəmməd ibn Şəddadın üzərinə getdi. Məhəmməd isə əhalinin qüvvəsi ilə düşmənə şiddətli müqavimət göstərdi. Araz çayı sahilində baş verən vuruşmada Məhəmməd qələbə çaldı, Deyrmus hakiminin qoşunları qaçaraq yaxın meşələrdə gizləndilər. Bu hadisədən sonra Məhəmməd özünü və ailəsini müdafiə etmək üçün Təl həsli adlı qala tikdirdi. Məhəmmədin qələbə çalması xəbəri Ərdəbilə çatdıqda İbrahim Dəbilə hücum etmək üçün qoşun toplamağa başladı. O, kürd və deyləmlilərdən böyük bir ordu toplayaraq Məhəmmədin üstünə göndərdi. İbrahimin piyada və süvarilərdən ibarət olan qoşunları Dəbil darvazalarına çatdıqda Məhəmməd onları qarşıladı və birinci hücumlarını dəf etdi. Lakin bundan sonra döyüş dahada şiddətləndi. Dəbil əhalisi buna dözə bilmədiyi üçün Məhəməddən aralandı. Döyüş meydanında yalnız öz adamları ilə qalan Məhəmməd ibn Şəddad da məcbur olaraq geri çəkilib öz qalasına sığındı və sonrada adamları ilə bərabər Ermənistana getdi. Bundan sonra Dəbil əhalisiMəhəmmədin yanına hörmətli şəxslər göndərərək qayıtmasını xahiş edərək, bir daha ona xəyanət etməyəcəklərini vəd etdilər. (V, Minorski. Şəddadilər, səh. 9). Başqa bir fikirə görə Məhəmməd Dəbil ətrafındakı döyüşdən sonra Ərzuruma getmişdi. Lakin V. Minorskinin rəyinə görə bu zaman Məhəmməd Vaspurakandan uzaq getməmişdir. O eyləmlilərin təzyiqi nəticəsində Araz çayını cənuba doğru keçərək Vaspurakana getmişdi. (Yenə orada, səh. 37). Məhəmməd dəbillilərin xahişini qəbul edərək Dəbilə qayıtmış və burada hakimiyyəti yenidən əlinə allmışdı.

**(ardı var)**

***Səhifəni hazırladı: Namiq Həsənov***

# Daşkəsəndə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 92 illik yubileyi ilə bağlı "Kitab bayramı" keçirilmişdir

Daşkəsəndə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 92 illik yubileyi ilə bağlı "Kitab bayramı" keçirilmişdir. 19 may 2015-ci il tarixdə Daşkəsən rayonunda Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 92 illik yubileyi ilə bağlı "Kitab bayramı" keçirilmişdir. Daşkəsən şəhər mədəniyyət evinin qarşındakı meydanda təşkil olunmuş tədbirdə 250 nəfər iştirak etmişdir. Rayon rəhbərliyinin, ziyalıların, ictimaiyyət nümayəndələri və kitabsevərlərin iştirak etdiyi tədbirdə çıxış edənlər mədəniyyətimizin hamisi kimi tanınan ümummilli lider Heydər Əliyevin xalqımız qarşısındakı tarixi xidmətlərindən danışmış, bilik mənbəyi olan kitabın daha geniş təbliğ olunmasında belə tədbirlərin əhəmiyyətini xüsusi vurğulamış, kitabsevərləri əlamətdar bayram münasibətilə təbrik etmişlər.

Bildirilmişdir ki, Ulu Öndərin bütün həyatı kitabla bağlı olmuşdur. O, dönə-dönə xatırladırdı ki, kitab bəşəriyyətin tərəqqisinin ən böyük vasitələrindən biridir. Kitabxanaların xalq, millət, cəmiyyət üçün müqəddəs yer, mənəviyyat, bilik, zəka mənbəyi olduğunu bildirən ümummilli liderimiz deyirdi ki, hər birimiz, ilk növbədə, ancaq kitab vasitəsi ilə təhsil almış, elmlərə yiyələnmiş, həyatda yaşamağa, fəaliyyət göstərməyə hazırlaşmışıq, ona görə də kitaba hər zaman borcluyuq.




Tədbirdə görkəmli dövlət xadimi Heydər Əliyev haqqında və vətənpərvərlik mövzusunda şagirdlər tərəfindən şeirlər söylənilmiş, körpə fidanların ifasında milli rəqs nümunələri ifa olunmuş və rayonda keçirilən tədbirlərdə fərqlənmiş şagirdlər mükafatlandırılmışlar. Keçirilən ənənəvi kitab bayramında ulu öndər Heydər Əliyevə və görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevaya həsr olunmuş ədəbiyyatlar nümayiş olunmuşdur.

# Daşkəsən şəhərinin içməli su problemi yüksək səviyyədə tam həllini tapacaqdır

15 may 2015-ci il tarixdə Azərbaycan Hökuməti ilə İslam İnkişaf Bankı tərəfindən maliyyələşən "Daşkəsən şəhərinin su və kanalizasiya sistemlərinin yenidən qurulması" işlərinə start verildi. Daşkəsən şəhərində həmin layihə üzrə 2 x 500 kub metr su tutumu olan yeni içməli su anbarının təməlqoyma mərasimi keçirildi.

Daşkəsən rayon ictimaiyyətinin və "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin rəhbərliyinin iştirak etdiyi təməlqoyma mərasimini Daşkəsən Rayon İcra Hakimiyyətinin Başçısı cənab Əhəd Abıyev açıq elan edərək demişdir:

- Çox hörmətli Qorxmaz müəllim, Daşkəsən rayonuna xoş gəlmisiniz. Sizi bütün rayon əhalisi adından salamlayır, bu suyun çəkilməsinə, görüləcək böyük xeyirxah işlərinizə görə sağ olun deyirik.

Bu gün Daşkəsən şəhərində "Milli Su Təchizatı və Kanalizasiya Xidmətləri üzrə ikinci layihə" ilə Daşkəsən şəhərinin su və kanalizasiya sistemlərinin yenidən qurulması üzrə tədbirin həyata keçirilməsi işlərinin təməlqoyma mərasiminə toplaşmışıq. Uzun müddət idi ki, Daşkəsən rayonunun su təminatı olduqca ciddi bir problem idi. Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin Daşkəsən rayonuna çox böyük diqqət, qayğısı və tapşırığı ilə bu layihə Dövlət Proqramına daxil edildi.

Bu layihənin həyata keçirilməsi Kiçik Qafqaz sıra dağlarının yüksəkliklərdə yerləşən su mənbələrindən, 20 kilometr məsafədən çəkilən su kəmərləri ilə Daşkəsən rayonunun sakinlərinin fasiləsiz, ekoloji cəhətdən təmiz su ilə təmin olunmasına imkan verəcəkdir. Eyni zamanda layihə üzrə görüləcək işlər nəticəsində dağ çayı bir çox qonşu rayonların əhalisinin də istifadə etdikləri Qoşqar çayının çirkab sularla çirkləndirilməsinin qarşısı tamamilə alınacaqdır.

İki ilə yaxın müddətdə icra olunacaq layihə ilə müasir tələblərə cavab verən su kəmərlərindən əlavə, Daşkəsən şəhərində 7 müxtəlif həcmli su anbarının və çirkab suların təmizləyici qurğusunun tikintisi də həyata keçiriləcəkdir.

Bu layihənin həyata keçirilməsi işsizlik problemi olan Daşkəsən rayonunun 200 nəfərdən artıq əhalisinin də işlə təmin olunmasına şərait yaradacaqdır. Eyni zamanda rayon sakinlərinin təmiz içməli su ilə təmin olunması, məişət şəraitlərinin yaxşılaşması ilə yanaşı əhalinin sağlamlıqlarının qorunmasına da olduqca müsbət təsir göstərəcəkdir.

Daşkəsən şəhərinin su və kanalizasiya sistemlərinin yenidən qurulması" layihəsinin icrasına başlanılması ilə əlaqədar təməlqoyma münasibətilə şəxsən möhtərəm Prezidentimiz cənab İlham Əliyevə, Heydər Əliyev Fondunun Prezidenti, millət vəkil Mehriban xanım Əliyevaya, Qorxmaz müəllim Sizə və Sizin kollektivinizə bütün Daşkəsən rayon əhalisi adından və öz adımdan dərin minnətdarlığımı bildirirəm.

Sonra çıxış edərək "Azərsu"



Açıq Səhmdar Cəmiyyətinin sədri Qorxmaz Hüseynov əlamətdar gün münasibətilə daşkəsənliləri təbrik etdi. O, bildirdi ki, Daşkəsən şəhəri məndə olduqca xoş təəssürat yaratdı. Rayonunuzun çox gözəl təbiəti, gözəl havası, saf bulaqları vardır. Dağlar qoynunda yerləşən Daşkəsən bu gün özünün sürətli inkişaf dövrünü yaşayır. Daşkəsəni kiçik İsveçrəyə bənzədənlər olduqca haqlıdırlar. Müxtəlif sahələrdə quruculuq, abadlıq və yenidənqurma işləri davam etdirilir. Təməlqoyma mərasiminə toplaşdığımız bu layihə çərçivəsində müasir tələblərə cavab verən yeni su kəmərlərinin, Daşkəsən şəhərində ümumi tutumu 4500 m3 olan 7 su anbarının, gündəlik gücü 3500 m3 olan 1 çirkab sutəmizləyici və 1 xlorator qurğusunun, 3 nasos stansiyasının tikintisi də həyata keçiriləcəkdir.

Layihədə əhalinin sayının 2035-ci ilədək artımı da nəzərə alınmaqla 2 su mənbəyindən (Qarainək, Gurbulaq) çəkilməklə magistral su xəttinin uzunluğu 20 km, içməli su şəbəkəsinin uzunluğu 18 300 p/m, kanalizasiya şəbəkəsinin uzunluğu isə 13 428 p/m təşkil edir.

Beləliklə, Daşkəsən şəhərinin əhalisi bu layihə üzrə görüləcək işlər nəticəsində uzun illər boyu fasiləsiz içməli su ilə təmin ediləcəkdir.

"Çakır Yapı" şirkətinin adından koordinator Zəfər Murtuzov çıxış edərək dedi:

- Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin verdiyi göstərişə uyğun olaraq layihənin icrası yüksək keyfiyyətlə və vaxtında başa çatdırılacaqdır. Layihənin icrasını çox böyük təcrübəsi olan Türkiyənin öndə gedən şirkəti həyata keçirəcək. İnanıram ki, layihə uğurla həyata keçiriləcək, eyni zamanda yerlərdə müəyyən qədər yerli işsiz əhali işlə təmin olunacaq, həyata keçirilən işlərdə çalışanlar üçün hər cür lazımi şərait yaradılacaqdır.

"Çakır Yapı" şirkətinin prezidenti Şükrü Çakır çıxış edərək bildirdi ki, mən Daşkəsəndə görüləcək bu işlərlə görə çox sevinirəm, insanlarda mənə qarşı çox mehriban, səmimi münasibət görürəm. Düşünürəm ki, işlərimiz uğurlu və gözəl olacaqdır. Siz bizim görəcəyimiz işlərdən çox məmnun qalacaqsınız. Layihənin həyata keçirilməsində diqqət və qayğısına görə Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevə minnətdarlığımı, ən xoş arzularımı bildirirəm. "Azərsu" ASC-nin sədri cənab Qorxmaz Hüseynovu əmin edirəm ki, Daşkəsən əhalisini içməli su ilə təmin olunması və kanalizasiya xidmətləri üzrə layihə yüksək səviyyədə həyata keçiriləcəkdir. Tədbirin sonunda layihənin icrasına Daşkəsən Rayon İcra Hakimiyyətinin Başçısı cənab Əhəd Abıyevin və "Azərsu" ASC-nin sədri cənab Qorxmaz Hüseynovun xeyir-duası ilə start verildi. ***dashkesen-ih.gov.az***

# Laçının işğal ilə bağlı ümumrayon tədbiri keçirilmişdir

18 may 2015-ci il tarixdə Laçın Rayon İcra strukturlarının və idarə müəssissələrinin müvəqqəti fəaliyyət göstərdiyi



Ağcabədi rayonunun Taxtakörpü qəsəbəsində Laçın rayonunun Ermənistan silahlı qüvvələri tərəfindən işğalının 23-cü ildönümü bağlı 4 min nəfərin iştirakı ilə geniş ümumrayon tədbiri keçirilmişdir. Tədbirdən əvvəl rayon ictimaiyyətinin nümayəndələri, o cümlədən şəhid ailələri, Qarabağ müharibəsi əlilləri, veteranları tərəfindən qəsəbədəki şəhidlərinin xatirəsinə ucaldılmış Xatirə Kompleksi ziyarət olunaraq önünə gül dəstələri qoyulmuşdur. Sonra tədbir Xatirə Kompleksinin qarşısında davam etdirilmişdir. Rayon şəhidlərinin xatirəsinə bir dəqiqəlik sükutla yad olunmasından sonra, davam edən tədbiri Rayon İcra Hakimiyyətinin başçısı Akif Səlimov giriş sözü ilə açaraq ölkəmizin ərazi bütövlüyünün qorunmasında mühüm strateji əhəmiyyətə malik olan Laçın rayonunun 23 il əvvəl erməni silahlı qüvvələri tərəfindən işğalı ilə bağlı ətraflı məlumat vermiş, işğal nəticəsində rayonun bir şəhəri, bir qəsəbəsi, 125 kəndinin erməni quldurları tərəfindən talan edilərək yandırıldığını, 54 dünya, 200-dən çox yerli əhəmiyyətli tarixi, mədəniyyət və dini abidələrin erməni vandalizminə məruz qaldığını, həmçinin 13745 yaşayış evinin , 48 sənaye, 63 kənd təsərrüfatı, 217 mədəniyyət, 101 təhsil, 142 səhiyyə, 462 ticarət, 96 məişət, 30 rabitə, 1 avtonəqliyyat və digər müəssisələrin talan edildiyini, əhalinin şəxsi təsərrüfatında olan 25 min baş iri, 200 min başdan çox xırdabuynuzlu heyvanlar və minlərlə arı ailəsinin qarət edildiyini bildirmiş, ümumiyyətlə rayona 7.1 milyard ABŞ dolları ziyan vurulduğunu bildirmişdir.O, da xüsusilə qeyd olunmuşdur ki, ata-baba yurdlarını müdafiə edən laçınlılardan 300 nəfərdən çoxu şəhid olmuş, 5 nəfəri isə Milli Qəhrəman adına layiq görülmüşdür. Sonra tədbirdə iştirak edən rayon ziyalıları, həmçinin şəhid ailələri, müharibə iştirakçıları çıxış edərək, erməni işğalının rayonumuza vurduğu ağır zərbələrdən danışmış, erməni faşizminin xalqımıza qarşı törətdiklərinin insanlığa sığmayan vəhşilik olduğunu qeyd etmiş, buna kəskin nifrətlərini bildirmişdilər. Onlar eyni zamanda bu müharibə nəticəsində nə qədər məhrumiyyətlərə məruz qalsalar da ata-baba yurdlarını-Laçını bir an belə unutmadıqlarını, Ulu öndər Heydər Əliyevin layiqli davamçısı, ölkə Prezidenti, Ali Baş komandan cənab İlham Əliyevin apardığı müdrik və uzaqgörən siyasət nəticəsində nikbin olduqlarını, tezliklə yağı düşmən tapdağı altında olan torpaqlarımızın azad ediləcəyinə qəti əminliklərini bildirmişlər. Tədbir Laçının işğalının 23-cü ildönümü ilə əlaqədar məktəblilərin hazırladıqları ədəbi-bədii kompozisiya ilə başa çatmışdır. Tədbirdə Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı Şahin Məmmədov, Milli Məclisin deputatları Nazim Fərəcov, Tahir Rzayev də iştirak etmişdir.

***lachin-ih.gov.az***



## Nəriman Əyyub

**RÜBAİLƏRDƏN BİR NEÇƏ PARÇA**

Hər zahiri göyçək olammaz gözəl,
Batili də gözəl olmalı əzəl.
Zahiri gözəlin batili çirkin,
Olanda başına tez düşər xəzəl.
***
Sədaqətə xəyanət eyləmə heç an,
Vara xəyanətdən ağırdır inan.
Heç nəyə xəyanət etməyən insan,
Deməli saf doğulub sağlam anadan
***
Dost odur ki eybi üzünə desin,
Onunla birlikdə saf çörək yesin.
Üzdə dost, daldada qeybət eyləsə,
Elə dostluq onun başına dəysin.
***
Mümkün olmayam heç arzu etmə,
Tanımadığın o yollara getmə.
Nakişi, nanəcib düzələn deyil,
Onlardan heç zaman yaxşılıq gümə.
***
Həmişə ölməyi tez yadına sal,
Ölmüşlərdən daim gündə ibrət al.
Məzarstanlığın yanından keçsən,
Oranı fikirləş, tez xəyala dal.
***
Deyərsə eybini, dostuna inan,
Gizlətsə eybini, ilandır ilan.
Dostisə dostuna doğrunu desin,
Nə yalan danışma, nə də ki utan.
***
Zülümkar heç zaman cəzasız qalmaz,
Nə də ki xalqından mükafat almaz.
Xalqının dərdinə yan, onu eşit,
Kişilik eyləyən saralmaz-solmaz.
***
Gül dərsən tikandan çəkinmə heç an,
İlanı da yaradıbdır Yaradan.
Layiqli əllərə tikanlar batmaz,
Tikanı götürür Xudam aradan.
***
Qadına ən vacib həya, ismətdir,
Kimlərdə varsa da böyük sərvətdir.
Həyası, isməti olmayan kəsin,
Daimi üzünə gələn töhmətdir.
***
İnsanları sevə bilməyən insan,
Həqiqəti sevə biləmməz inan.
İnsanı sevməyən insan deyildir,
Tək fərqi ondadır danışan heyvan.
***
Söz var ki daimi kəsdirər başı,
Söz də var yerində kəsər savaşı.
Sözü də söz kimi demək yaxşıdır,
Söz var parçalayar qayanı-daşı.
***
Elə söz söyləmək gərəkdir ki sən,
Söyləyə biləsən onu yenidən.
Söylədiyin sözdən ziyan dəyməsin,
Ziyan dəysə başa düçar tezcə dən.
***
Hörmət eylə özün hörmətlə yaşa,
